# Bir fotonun izi ilə...

## Heydər Əliyev dahi şair Hüseyn Cavidin nəşinin Azərbaycana gətirilməsini ona həvalə etmişdi



Ulduz Eyvazqızı

(əvvəli ötən sayımızda)

*Bizim təkidli və təkrarsız xahişlərimizdən sonra zirehli maşınlar 1982-ci il oktyabrın 21-də yerli əhalinin "gedər-gəlməz" saydıqları Tayşet şəhərindən 75 kilometr məsafədə yerləşən Şevçenko kəndinə istiqamət aldı. Bu səfərə rəsmi olaraq partiya, hüquq-mühafizə, ədliyyə, səhiyyə orqanlarının məsul işçiləri qatılmışdılar. Bütün ümidlər isə 1941-ci ildə Cavidin 'həbs evində"- islah-əmək düşərgəsində keşikçi dəstəsinin rəisi işləmiş 72 yaşlı Darafiy Tradyakola idi. O, Şevçenkoda 40 min insanın dəfn olunduğu qəbiristanlığın dağılmadığını əminliklə bildirirdi. Oktyabrın 21-də Şevçenko kəndində olduq. Kənd əslində 100 hektarlarla ərazisi olan sərt Sibir meşəsi idi. Məzarlıq tapıldı. İki saat axtarışdan sonra isə Şevçenko rayon prokuroru Yelena Xaritinova 59 saylı qəbiri tapdı və qəbrin açılması üçün sanksiya imzalandı və nəhayət, Cavidin qəbri qazıldı. Hüseyn Cavid 59 saylı qəbirdə uyuyurdu... Cavidin cənazəsinin qalıqlarını torpaqdan götürdük. O, an keçirdiyim hisslərin adı, əvəzi yox idi. Kəllə sümüyündə sadəcə saç tükləri qalmışdı. Qəbirdən Cavidin başını əlimə alıb alnından öpdüm. Göz yaşlarımı saxlaya bilmirdim. Öncə başını götürüb alnından öpdüm və kənara qoydum. Sanki işıq saçırdı. Qürurla kədərin, həsrət və vüsalın eyni anda yaşanması məni məndən almışdı. Sümüklərinə diqqətlə baxdıq heç bir güllə izi yox idi. Ayağının aşağı hissəsində yun çorabın tükləri qalmışdı. Müşgünazın toxuduğu yun çorabın...*

Şəriət qanunlarına uyğun olaraq ehsan verilməklə, həmçinin 100 illik yubileyi ilə bağlı 100 yaylım atəşi ilə Cavidin xatirəsi yad edildi. Onun sümükləri qürbətdən, buz bağlamış torpaqdan azad oldu. İllər ötsədə vətəninə qaytarıldı. "

Əvvəlcədən planlaşdırıldığı kimi, Hüseyn Cavid Şevçenko-Tayşet-İrkutsk-Moskva-Yerevan-Naxçıvan marşrutu ilə Vətənə "qayıtmalı" idi. İrkutskdan Moskvaya uçarkən stüardessa Həmid Cəfərova Bakıdan gələn tapşırığı çatdırıb: "Heydər Əliyevin göstərişi ilə siz oktyabrın 26-da 861-ci reyslə Moskvadan birbaşa Bakıya uçmalısınız". Ulu öndərin tapşırığı ilə marşrut dəyişdirilir: "Bu, adi bir tapşırıq deyildi və bir tale yazısı idi. Cavidin "ayağı" İrəvana dəyməməli idi. Cavid Bakıdan getmişdi, Bakıya da qayıtmalı idi".



1982-ci il oktyabrın 26-da Cavid öz vətən oğullarının çiynində Bakıya, daha sonra doğulduğu Naxçıvana qayıtdı. "Dahi şairi qızı Turan Cavid, sənət adamları və ictimaiyyətin nümayəndələri müşayiət edirdi. Şəhərin təyyarə meydanı çox izdihamlı idi. Muxtar respublikanın görkəmli adamları, ictimaiyyətin nümayəndələri Cavidin cənazəsini gətirən təyyarəni qarşılamağa gəlmişdilər. Həmin gün H.Cavidin cənazəsinin qalıqları onun vaxtı ilə yaşadığı, hazırda ev-muzeyinə çevrilmiş binaya gətirildi. 1982-ci il noyabrın 3-də Naxçıvan Dram Teatrında vida görüşündən sonra saat 15.00-da Hüseyn Cavid Naxçıvan şəhərində - Cavid bağında torpağa tapşırıldı".



Həmid Cəfərov böyük şairin cəsədinin uzaq Sibirdən gətirilərək doğma torpağında basdırılması hadisəsinin iştirakçısı olmasını ömrünün ən yaddaqalan hadisəsi adlandırır. Bunu ulu öndərin ona göstərdiyi yüksək etimadı doğrultmaqla bərabər, böyük şairin ruhu qarşısında borcu hesab edir.

Hazırda təqaüddə olan Həmid Cəfərov iştirakçısı olduğu hadisə ilə bağlı əldə etdiyi sənədlər əsasında kitablar yazıb. . İllərdən bəri topladığı şəkilləri, bu mövzuda yazılan qəzetləri, jurnalları göz bəbəyi kimi qoruyub saxlayır. Bunu özünün mənəvi borcu sayır. Söz düşəndə, qürurla "fəxr edirəmki, HeydərƏliyev bu məsuliyyətli işi məhz mənə həvalə etdi" deyir.

80 yaşlı təqaüdçünün gənclərə tövsiyəsi də var: "Arzum budur ki, böyüyən nəsil repressiya illərinin dəhşətli günləri haqqında məlumatlı olsunlar. Vətənini sevən, onun uğrunda əzablara qatlaşan, sürgünlərdə məhv edilən görkəmli insanları yaxşı tanısınlar. Bu, onların vətənpərvər ruhda böyüməsinə, tarixinə, keçmişinə hörmətlə yaşamalarına kömək edər. Cavid dühası ədəbiyyatımızın, tariximizin əvəzsiz xəzinəsidir. Milli irsimizin, türkşülük ideologiyamızın uğruna canını fəda edən Cavid əfəndi ölməzlik simvolu, bəşəriyyəti haqqədalət yolcusu edən, hurli sabahlara səsləyən vətənsevdalısı idi. Belə şəxsiyyətlərin həyatına toxunun insanlar isə seçilmiş insanlardır. Həmid Cəfərov kimi. H.Cəfərovu dinlədikcə sanki məni o yerlərə aparıb bütün incəlikləri ilə göstərməyə, öyrənməyə çalışdı. Ruhum o şaxtalı, buzlu günləri təpədən dırnağa kimi yaşadı.

Mən Naxçıvanda yaşayıram. Atdığım hər addımda Cavidin nəfəsini duyuram. Onun keçdiyi yerlərdən keçirəm. Hüseyn Cavid məqbərəsi ən sevdiyim, ən çox Cavidlə dərdləşdiyim yerdir. Dahi şairin ev müzeyi, oradakı hər bir eksponat çox əziz və dəyərlidir. Divardan asılmış şəkillər arasında bir qism şəkillər varki, sirri, sehri, möcüzəsi ilə Cavidin qeyri-adi insan olduğunu sübut edir. Bu şəkilləri izlədikcə hər bir şəkil insanı öz ağuşuna alır, şəkillərdəki hər bir kiçik hissə belə Cavidin aliliyindən danışır. Məhz elə o şəkillərdən birinin izi ilə bu qədər fikri, sözü sizinlə bölüşə bildim.

Cavidin mənəvi övladı olmaq şərəfini hiss etmək ən ali borcum, vəzifəmdir.

Hüseyn Cavidində dediyi kimi:

**Ölüm var ki, həyat qədər dəyərli,**
**Həyat var ki, ölümdən də zəhərli...**
**Yaşamaq da xoşdur, ölmək də xoşdur,**
**Qayəsiz həyatda ölüm də boşdur...**

